




# Ərazi bütövlüyünün, suverenliyin təbliği naminə

*2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın tarixi inkişaf yolunda mühüm mərhələdir. Prezident İlham Əliyevin bu qərarı imzalaması ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və milli dəyərlərinin qorunması istiqamətində atılan mühüm addımların davamıdır. Lakin bu yalnız hüquqi və siyasi mahiyyət daşımır. Sözügedən qərar həm də milli şüurun möhkəmlənməsinə, tarixi ədalətin bərpasına və gələcək nəsillərə mental dəyərlərin ötürülməsinə xidmət edən strateji yanaşmadır. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunub və o vaxtdan bəri dövlətimizin hüquqi sütunu, vətəndaşların hüquq və azadlıqlarının təminatçısı kimi çıxış edir. Bu il məhz bu fundamental sənədin əhəmiyyətinin vurğulanmasına həsr olunub. Cəmiyyətin hüquqi maarifləndirilməsi gücləndiriləcək, Konstitusiyanın tarixi, hüquq sistemindəki rolu və inkişaf perspektivləri barədə geniş tədbirlər keçiriləcək.*

Suverenlik Azərbaycan üçün sadəcə hüquqi anlayış deyil - bu, xalqımızın mübarizəsinin, qürurunun və dövlət quruculuğunun təməlidir. 2020-ci ildə əldə olunan tarixi Zəfərlə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olunub. Bu gün isə ölkəmiz Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində təkcə hərbi sahədə deyil, diplomatik müstəvidə də güclənərək regionun lider dövlətinə çevrilib. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə Azərbaycanın gələcəyə daha möhkəm hüquqi bünövrə ilə irəliləməsinə, dövlətçiliyimizin əsaslarının daha da güclənməsinə xidmət edir.

1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı müstəqilliyimizin hüquqi əsasını qoydu. Bundan sonra ölkənin həqiqi suverenliyi naminə ciddi addımlar atılmalı idi. Sənəddə yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulmuşdu, lakin 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin suverenlik ideyasından uzaq olması, dövlətçilikdən xəbərsiz şəxslərin yarıtmaz fəaliyyəti ölkəni xaosa sürüklədi. Anarxiya hökm sürdü, dövlət idarəetmə mexanizmləri formalaşdırılmadı, qanunçuluq iflic oldu, vətəndaşların təhlükəsizliyi təmin edilmədi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyası ilə bu təhlükəli proseslərin qarşısını aldı, ölkədə ictimai-siyasi sabitliyi bərpa etdi və müasir dövlət quruculuğunun əsasını qoydu. Məhz onun rəhbərliyi ilə Azərbaycanın ilk müstəqil Konstitusiyası hazırlandı və 1995-ci ildə qəbul edildi. Konstitusiya Komissiyasının 10 noyabr 1995-ci il tarixli iclasında Heydər Əliyev böyük inamla demişdi: "Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm". Bu sözlər Konstitusiyanın yalnız hüquqi sənəd deyil, müasir Azərbaycanın gələcək inkişafının möhkəm təməl üzərində olduğunu bir daha sübut edirdi.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi təkcə Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümünü deyil, həm də Vətən müharibəsində qazandığımız möhtəşəm qələbənin 5-ci ildönümünü əks etdirir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub - bu, tarixi gerçəklikdir. 2025-ci il bir tərəfdən, Konstitusiyamızın ifadə etdiyi ali dəyərlərin gerçəkləşməsini, digər tərəfdən isə müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda atılan növbəti mühüm addımı ehtiva edir. Bu il Azərbaycan xalqının milli iradəsinin, mübarizə əzminin və müstəqil dövlət quruculuğu yolunda qazandığı uğurların təntənəsi olacaq.

"Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam bütün sahələrdə "Konstitusiya və Suverenlik İli"nin mahiyyətinin və əhəmiyyətinin cəmiyyətdə və qlobal məkanda geniş işıqlandırılması üçün əsaslı yol xəritəsidir. Bu çərçivədə ölkə başçısının tapşırığı ilə bir sıra tövsiyələr və tədbirlər qeyd olunub. Xüsusi vurğulamaq lazımdır ki, "Konstitusiya və Suverenlik İli"nin mahiyyəti və əhəmiyyəti ilə əlaqədar olaraq forumların, konfransların, simpoziumların, dəyirmi masaların, seminarların, müsabiqələrin, müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, vətənpərvərlik mahnılarının (marşların) yazılması, beynəlxalq turizm sərgilərində Azərbaycan milli stendində "Konstitusiya və Suverenlik İli" haqqında məlumatların təqdim edilməsi ilə bağlı vəzifələr müəyyən edilib.

Hərbi sahədə də "Konstitusiya və Suverenlik İli"nin mahiyyətinin qeyd olunması məqsədilə hərbi təlimlərin keçirilməsi nəzərdə tutulub. Cəmiyyətin müxtəlif təbəqələrinin maarifləndirilməsi, həmçinin diasporumuzun bu işdə aktiv iştirakı üçün nəzərdə tutulan plan olduqca dəyərlidir. Tədbirlər Planına əsasən mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və blogerlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili onu deməyə əsas verir ki, həm lokal, həm də qlobal olaraq 2025-ci il Azərbaycanda xüsusilə əlamətdar olacaq.

Bununla yanaşı, adsız zirvələrə, Bakı şəhərində və digər böyük şəhərlərdə prospekt, küçə, meydan və müvafiq ərazi vahidlərinə, metro stansiyalarına "Konstitusiya və Suverenlik İli" münasibətilə yeni adların verilməsi olduqca əlamətdər qərar hesab olunmalıdır. Bu çərçivədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Geodeziya və Kartoqrafiya Agentliyi, yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi fəal iştirak edəcəkdir.

Ulu öndər Heydər Əliyevin də dediyi kimi, hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Məhz Heydər Əliyevin miras qoyduğu bu ənənə "Konstitusiya və Suverenlik İli" çərçivəsində hazırlanan tədbirlər planında da öz əksini tapır. Belə ki, plana əsasən şəhər və rayonlarda "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş ağacəkmə aksiyaları keçiriləcək. Bununla yanaşı, idman yarışları və beynəlxalq turnirləri, "Zəfər yürüşü" tədbirləri təşkil ediləcək.

Təhsil, mədəniyyət, elm, hərbi, sosial, idman və digər sahələri əhatə edən "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı" cari ilin unudulmaz və tariximizdə yeni qızıl səhifə olması üçün əsaslı sənəddir. Bu çərçivədə müvafiq orqan və dövlət qurumlarının operativ fəaliyyəti cəmiyyətimizdə yüksək məmnunluq yaradacaq.

**Nurlan ABDALOV,**
**"Respublika".**